

# TƏLATÜMLƏRƏ SİNƏ GƏRƏN NEY

***Xalqımızın yaratdığı bir çox musiqi alətlərinin yaranması tarixin qədim köklərinə gedib çıxır. Qədim insanlar ibtidai əmək alətləri ilə yanaşı primitiv də olsa, öncə zərb alətləri, sonralar nəfəsli və simli alətlər hazırlamışlar. Bu alətlərin bəziləri əsrlər boyu təkmilləşdirilmiş, sadədən mürəkkəbə doğru inkişaf etdirilərək mükəmməl müasir alətlərə çevrilmişlər. Bəziləri isə bu və ya digər səbəbdən sıradan çıxmış, tarixin keşməkeşli yollarında itib-batmışdır.***

Belə ki, tədricən sıradan çıxmış alətlərimizdən biridə neydir. 1984-cü ildən mən bu aləti professional səviyyədə ifa edirəm. İlk peşəkar ifaçılığım "Dastan" folklor ansamblından başlayıb. Sonra isə S.Rüstəmov adına XÇA orkestrində və son illərə kimi R.Babayev adına caz ansamblında solist kimi çalışmışam. 1988-1989-cu illərdə Daşkənd konservatoriyasında ney aləti üzrə təhsil almışam. 1990-cı ildə indiki Bakı Musiqi Akademiyasını ney və klarnet ixtisası üzrə bitirmişəm. 2000-ci ildən 2004-cü ilə qədər dünya şöhrətli bəstəkar F.Əlizadənin "Dərviş" əsərini qədim ney aləti ilə Amerika və Avropanın ən möhtəşəm konsert salonlarında Azərbaycanı tərənnüm etmişəm. Onu da qeyd edim ki, əsərdə "Dərviş"in partiyasını dünyaşöhrətli muğam ustamız A.Qasımov ifa etmişdir.

Beləliklə, bütün nailiyyətlərim sirli, ecazkar qədim ney aləti ilə bağlıdır. Ney ən qədim nəfəs alətidir. Ümumiyyətlə, neyi bütün dünya xalqlarının nəfəslə çalınan alətlərinin əcdadı saymaq olar. Mütəxəsislərin fikrincə həyat yaranandan ney də yaranmışdır. Rəvayətə görə ney belə yaranmışdır. İbtidai insan küləkli havada qamışlıqda gəzərkən fitə oxşar səs eşidir və səs gələn tərəfə yaxınlaşır. Görür ki, burada heç kəs yoxdur. Sadəcə qamışlıqda qamışlardan biri qurumuş və yanı üstə hava çəkən istiqamətdə düşmüşdür. Qamışın gövdəsinin üstündə bir dəlik açılmışdır. Güman edilir ki, həmin dəlik, hər hansı bir quşun dimdiyi ilə qurumuş qamışa vurması nəticəsində açılmışdır. Hava çəkən istiqamətdə bu dəliyin üzərindən külək əsdikcə fitə oxşar səs alınmışdır. Qədim insanlar qamışları kəsib, primitiv də olsa bu cür alətlər hazırlamışlar.

Bir müddətdən sonra qamışın gövdəsi üzərində üfürülən dəlikdən sağ tərəfdə əvvəl bir, sonra iki və üçüncü dəlikləri açaraq, bu dəliklərə barmaqları qapamaqla fərqli səslər hasil edildiyinin şahidi olmuşlar. Uzun müddət üç dəlikli kiçik intervalda olan neydən insanlar istifadə etmişlər. Sonralar sənətkarlar daha üç dəlik açaraq alətin diapazonunu genişləndirmişlər. Ney Şərqdə yaranmış və demək olar ki, bütün Şərq xalqları bu gün də neydən sevə-sevə istifadə edirlər.

Avropada yaranan bir çox alətlər Şərq alətlərinə istinadən yaranmışdır. Belə alətlərdən fleytanı misal çəkmək olar. Fleytanın əcdadı ney aləti sayılır. Avropada neyin qamış gövdəsini ağacla əvəz edərək, dəliklərin üzərinə klapanlar ABŞ və Avropa ölkələrinin aparıcı aləti sayılan Avropa aləti fleytanı misal göstərməklə mədəniyyətin bir hissəsinin Şərqdən Avropaya gəlişi sübut deyilmi…

**İlham Nəcəfov**